## MÜKAFATLARI



**Lenin komsomolu mükafatı -** 1968

*Ümumittifaq Lenin komsomolu mükafatı (rus. Премия Ленинского комсомола) - komsomol üzvlərinə, eləcə də kollektiv və təşkilatlara elm, texnologiya, istehsal, mədəniyyət sahələrindəki yüksək nailiyyətlərinə görə, həmçinin Ümumittifaq sosializm yarışılarıda ən yüksək nailiyyət əldə etmiş yaradıcı təşəbbüs göstərən gənclərə verilən mükafat.*



**SSRİ Dövlət mükafatı** - 1973

*SSRİ Dövlət Mükafatı (1967 - 1991) - 1966-cı ildə Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən təsis edilmiş və hər il verilən dövlət mükafatı.*



**"Qırmızı əmək bayrağı" ordeni -** 9 dekabr 1974

*"Qırmızı əmək bayrağı" ordeni - Əmək xidmətlərinə görə SSRİ-nin ümumi mülki mükafatıdır. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin 7 sentyabr 1928-ci il tarixli qərarı ilə yaradılmışdır.*



**"Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adı** - 30 iyul 1979

*Azərbaycan SSR Əməkdar incəsənət xadimi - 25 mart 1928-ci ildə təsis edilmiş fəxri ad. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən Azərbaycan mədəniyyətinin inkişaf etdirilməsi işində xüsusi fərqlənən incəsənət xadimlərinə verilirdi.*



**Azərbaycan SSR Dövlət mükafatı** - 1982

*Azərbaycan SSR Dövlət mükafatı (azərb-kiril. Азәрбајҹан ССР Дөвләт мукафаты) - Azərbaycan SSR-də ədəbiyyat, incəsənət və arxitektura, elm və texnika xadimlərinə və əmək nailiyyətlərinə görə istehsal qabaqcıllarına iki ildən bir verilən yüksək mükafat.*



**"Lenin" ordeni** - 16 noyabr 1984

*Lenin ordeni - SSRİ-nin ən yüksək mükafatı. 6 aprel 1930-cu ildə SSRİ MİK-in fərmanı ilə yaradılıb. Nikolay Patoliçev, Dmitri Ustinov 11 dəfə, Şərəf Rəşidov, Yefim Slavski, Aleksandr Yakovlev 10 dəfə bu ordenə layiq görülmüşdür.*



**"Azərbaycan SSR xalq şairi" fəxri adı** - 26 noyabr 1984

*Azərbaycan SSR xalq şairi (azərb-kiril. Азәрбајҹан ССР халг шаири) — 23 yanvar 1956-cı ildə təsis edilmiş fəxri ad. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən görkəmli şairlərə verilirdi.*



**"Şöhrət" ordeni** - 17 dekabr 1995

*Şöhrət ordeni iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda xüsusi xidmətlərinə görə, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və əməkdaşlığın inkişafında xüsusi xidmətlərinə görə, sənaye, nəqliyyat, rabitə, tikinti sahələrində və xalq təsərrüfatının digər sahələrində görkəmli əmək nəticələrinə görə, elm, təhsil və səhiyyə sahəsində xüsusi xidmətlərinə görə verilir.*



**"İstiqlal" ordeni** - 10 dekabr 2004

*"İstiqlal" ordeni - Azərbaycan Respublikasının dövlət təltifi. 1992–2005-ci illərdə Azərbaycanın ən yüksək dövlət təltifi olmuşdur.*

**Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü** - 11 iyun 2002